# REGİON DÖVLƏTLƏRİ VƏ XALQLARININ TƏHSİL ƏLAQƏLƏRİ

Sərxan CƏFƏROV*
Elnarə İSAZADƏ**

**Xülasə:** Dünyanın bütün ölkələrində gənc nəslin təhsil və tərbiyəsi indiki dövrdə böyük aktuallıq kəsb edir. ABŞ, Qərbi Avropa, Yaponiya, Rusiya və s. tanınmış nüfuzlu ölkələrdə böyüyən nəslin təhsil və tərbiyəsi ilə bağlı əldə olunmuş nailiyyətlər, töhfələr bütün dünya ölkələrinə öz təsirini göstərmişdir. Eyni zamanda, Azərbaycanda da dünya ölkələrinin təhsil sistemi geniş müzkirə mövzularından biri olmuşdur. Bu baxımdan, bir çox ölkələr Ümumavropa təhsil məkanına inteqrasiya olunmaqla, hər bir ölkənin təhsilinin öz spesifikasına uyğun müəyyənləşməsi əsas çıxış yolu olmuşdur.
Dünya hazırda vahid deyil, məhz buna görə də təhsilin hər hansı bir vahid modeli də mövcud ola bilməz. Buna baxmayaraq, biz ölkələri az və çox inkişaf etmiş ölkələrə bölürük, bunlar içərisində elələrini vardır ki, özümüzü onlara oxşatmaq böyük əhəmiyyət kəsb edir və nəticə etibarı ilə müasir inkişaf etmiş cəmiyyətin insanının hər hansı bir modeli də təsvir oluna bilir. Məqalə yazılarkən mövcud dünya təhsil sisteminə aid bir çox məlumatlara istinad edilmiş, onların faydalı cəhətləri nəzərə alınmışdır. Bu baxımdan, məqalədə dünyada tanınmış nüfuzlu ölkələrin təhsil sisteminin yaranma tarixi, inkişafı və bu günə kimi əldə olunan nailiyyətləri nəzərdən keçirilir.
***Açar Sözlər:*** *Təhsil, Təhsil Siyasətinin Elementləri, Amerika və Qərb Təhsil Sistemi, İnsan Kapitalı*

**Educational Relations of Regional States and Peoples**

**Abstract:** The education and upbringing of the younger generation in all countries of the world is very important today. The achievements and contributions of the United States, Western Europe, Japan, Russia, etc. in the field of education and upbringing of the younger generation have affected all countries of the world. At the same time, the education system of the world countries has been one of the topics of wide discussion in Azerbaijan. From this point of view, with the integration of many countries into the European educational space, the main way out was to determine the education of each country according to its specifics. The world today is not unified, which is why there can be no unified model of education. Nevertheless, we divide the countries into more or less developed countries, from which we choose the ones in which it is important to imitate ourselves, and as a result, any model of man in modern developed society can be described. The article refers to a lot of information about the current world education system and takes into account its usefulness. The article examines the history, development, and achievements of the education system of the world's leading countries.
***Key Words****: Education, Elements of Education Policy, American and Western Education System, Human Capital*

## Giriş

Dünyanın hər bir yerində, ictimai inkişafın hər bir mərhələsində cəmiyyətin təhsillə üzvi bağlılığı olmuşdur. Gənc nəsillərin tədrisi, öyrədilməsi, maarifləndirilməsi ən qədim fəaliyyətlərdəndir. Ola bilsin ki, bəzi cəmiyyətlər təhsil fəaliyyəti və qurumları üçün kifayət qədər resurs səfərbər edə bilməsin, ancaq hamı təhsilin ictimai həyatda mərkəzi rolunu qeyd-şərtsiz qəbul edir. Təhsilin əhəmiyyəti bir çox amillərlə bağlıdır. Məsələn, aydındır ki, uşaqlar həyata ilk addımlarını atanda oxunu, yazını və hesabı bilmirlər, yaşadıqları icmanın və toplumun əxlaq normaları və mədəni nailiyyətləri haqqında xəbərsiz olurlar. Peşəkar müəllimlərin səyləri və ailədəki təlim-tərbiyənin, həmçinin müasir dövrdə kütləvi media vasitələrindən və internetdən irəli gələn imkanların sayəsində gənc nəsil cəmi bir neçə il ərzində oxumağı, yazmağı, hesablamağı, öz ətraf mühitini, əxlaq-davranış normalarını öyrənir. Bəziləri bu bacarıqları digərlərinə nisbətən daha dərindən qavraya bilir və beləliklə təhsil sistemi əslində ictimai çeşidləmə funksiyasını da yerinə yetirərək fərdlərin gələcək iqtisadi taleyinə böyük təsir göstərir. Bir məfhum kimi, "təhsil" praktik fəaliyyət üçün gərəkli olan biliklərin və müvafiq bacarıq və səriştələrin məcmusudur. YUNESKO-nun müəyyən etdiyi beynəlxalq tərifə görə isə, təhsil şəxsiyyətin bacarıq və davranışlarının təkmilləşdirilməsinin elə bir prosesi və nəticəsidir ki, bu zaman o, əqli yetkinlik və fərdi

---

* Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı, sarxan_cafarov@mail.ru, ORCID: 0000-0002-1835-0709
** Müəllim, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı, elnare.zade93@gmail.com

DOI :10.30546/100981.1.2024.0246

inkişafa nail olur. Diqqət yetirin ki, təhsil dedikdə yalnız formal təhsil, yəni məktəb və ya universitet təhsili nəzərdə tutulmur. Təhsil həyatın müxtəlif çağırışlarına hazırlıq üçün uzunmüddətli və çoxşaxəli öyrənmə prosesidir. Başqa sözlə, təhsil fərdlərə ötürdüyü əsaslı bilik və bacarıqlarla onların öz arzu və amallarını necə ifadə etməsini və həyata keçirməsini müəyyənləşdirir, həm də onları öz icmalarının həyatında fəal iştirak edən düşüncəli vətəndaş kimi yetişdirir. Əlbəttə, bu çox fərdiyyətçi yanaşmadır – yəni burada insanlara toplum kimi deyil, fərdlər kimi baxılır. İnsanlara həm də cəmiyyət nöqteyi-nəzərindən yanaşmaq lazımdır, belə olduqda əlavə, mahiyyətcə yeni perspektivlər, yanaşmalar və prioritetlər ortaya çıxır. Məsələn, plüralist cəmiyyətlərdə, o cümlədən Qərb demokratiyalarında bəzi qruplar fərdin muxtariyyətini tamamən qəbul edə bilmirlər, çünki onların fikrincə, yalnız öz eqosuna və hüquqlarına qapılmış fərdlər milli-mədəni normalara, inanclara və ənənələrə tabe olmamaqla milli (etnik, mədəni və ya konfessional) qrupun varlığını zəiflədə bilərlər. Beləcə öz milli mahiyyətini fərdiyyətçiliyin təhlükəsi altında görən qruplar dövlət tərəfindən təmin edilən icbari və formal təhsili heç də həmişə faydalı hesab etmirlər. Bununla belə, bütün milli-siyasi qruplar (millətlər və dövlətlər) qəbul edirlər ki, onların davamlı gələcəyi təhsil proseslərindən asılıdır (Mərdanov, 2006).

1916-cı ildə nəşr edilmiş "Demokratiya və Təhsil" əsərində amerikalı ictimai xadim və filosof Con Dyui yazırdı ki, ən geniş anlamda təhsil həyatın sosial davamı üçün bir vasitədir.1 O qeyd edirdi ki, "sosial qrupun hər bir üzvünün doğuluş və ölümünün qaçılmazlığı" təhsili labüd edir, zira bu bioloji dövriliyə baxmayaraq, "qrupun həyatı davam etməlidir."2 Təhsilin sosial əhəmiyyətinin digər bir göstəricisi ondan ibarətdir ki, cəmiyyət hər hansı böhranla üzləşdikdə, bu ilk növbədə öz əksini məhz təhsil sahəsində göstərir; təhsil və müəllimlər böhranın şiddətini üzərinə götürən ilk əzabkeş olurlar (Dewey, 1916: 434).

İndiki dövrdə təhsilin rolu və əhəmiyyəti daha fərqlidir. 21-ci əsrin tarixi çözələndikcə, müasir həyatın panoramında iki dominant dinamikanı müşahidə edirik: bunlardan biri informasiya texnologiyalarının diffuziyası, digəri isə kapitalın diffuziyası ilə müşayiət olunan iqtisadi qloballaşmadır. Yaşadığımız informasiya dövründə yeni faktlar və bilgilər başgicəlləndirici sürətlə həyatımıza daxil olur. Cəmi bir neçə il bundan əvvəl öyrəndiyimiz bilgilər öz əhəmiyyətini itirir, bu yaxınlara kimi həqiqiliyinə əmin olduğumuz köhnə biliklərin yanlışlığı sübut olunur, dünya görüşümüzü kökündən dəyişə biləcək yeni biliklər meydana atılır. Yeni məlumatlara çıxışı olan insanların sayı da həndəsi silsilə sürəti ilə artmaqdadır. Elmi biliklərin yaradılmasının bugünkü tempi ilə biliklərin diffuziya dərəcəsi hətta "bilmək", "səriştəli olmaq" və "öyrənmək" kimi ənənəvi anlayışların özünü belə sual altına qoyur: 21-ci əsrdə artıq kimsə nəyisə tam bilməsinə arxayın ola bilməz.

İndiyədək təhsil sistemi gənc nəsillərə və yeni işçi qüvvəsinə məhsulun səmərəli yetişdirilməsi və ya istehsalı üsullarını, ətraf mühitin mühafizəsini, ailələrin sağlamlığının təmin edilməsini, gəlirin artırılmasını, ictimai həyatda fəal iştirakı və ya ümumi bilikləri öyrədirdi. Həyatını insanları "maarifləndirmək" işinə həsr etmiş müəllim və təlimçilərin qarşısında artıq yeni suallar və yeni vəzifələr durur. Məsələn, "tələbə olmaq", "öyrənmək", "düşünmək", "bilmək" nə deməkdir? İnsanlar gələcəyə hazır olmaq üçün nəyi və necə öyrənməlidirlər? Elmi-texnoloji inkişaf dövründə "məsafəli öyrənmə" ilə "ənənəvi tədris" arasında əhəmiyyətli fərq varmı? Şagird və tələbələrin sabahkı "fərdi" və "kollektiv" iş tapşırıqları bugünkü anlayışlarımızdan nə ilə fərqlənəcəkdir? İnsanların hansı mövzuları və hansı metodlara əsasən öyrənəcəyini kim və necə müəyyən etməlidir?

İnkişaf etməkdə olan ölkələrdə, o cümlədən Azərbaycanda inkişaf proseslərinin qanunauyğunluğu, ritmi və tərkibi əvvəlki modernizasiya təcrübələrindən fərqli olacaqdır. Dövrünün yeniliklərinə açıq olan cəmiyyət 100 il, 50 il, hətta 20 il bundan əvvəlki qaydada müasirləşmir, artıq onun mahiyyəti dəyişir. "Səciyyəvi Şimallının," yəni müasir Qərb insanının son yüzillikdəki təkamül profilinə baxaq. Əvvəllər kənd yerində yaşayan Qərb insanı indi şəhər yerinin əmək qüvvəsinə mənsubdur (Mahmudov, 2010). Qərb adamı əl ilə

görülən işləri arxada qoyaraq indi zehni fəaliyyətlə məşğul olan "bilik işçisi" olmuş, fərdi fermerçilikdən uzaqlaşaraq korporativ işçiyə çevrilmişdir. Bu təkamülün səciyyəvi cəhətləri isə gündəlik normal yaşayışın təmin olunması üçün daha çox biliklərdən, daha abstrakt düşüncədən və daha hərtərəfli intellektdən istifadə edilməsidir. Əgər Qərb insanını nümunəvi oriyentir kimi qəbul etsək, onda biz "gələcəyin indiki dövrünə" çoxdan daxil olmuşuq. Biz "gələcəyin müasiri" olmaq istəyiriksə, bizim təhsildə modernizasiya artıq Qərb insanı ilə ayaqlaşmalı deyil, sabaha hesablanmalıdır! (Касевич, Светлов, Петров, Цыб, 2004)

XX əsrdə kapitalizmin ən nəhəng ictimai – iqtisadi formasiyaya çevrilməsi təhsilin hərtərəfli inkişafında da öz müsbət təsirini göstərdi. Amerikada, elecə də Qərbdə təhsil sisteminin inkişafı yeni-yeni tədris-tərbiyə ənənələrinin formalaşmasına səbəb oldu. Böyük Britaniyada özəl sektor əsasında formalaşmış Kembric və Oksford universitetləri əsl qabaqcıl təcrübə tribunasına çevrildilər. ABŞ-da inkişaf edən kapitalizm Şimali Amerika ərazisində daha geniş vüsət aldı. Buraya İngiltərədən gəlmiş maarifçilər təhsilin yeni formalarını, şəbəkələrini yaratmağa başladılar ki, onlarda bu gün ən mütərəqqi təhsil məzmununu özündə təcəssüm etdir. Avstraliyada da təxminən bu mənzərə müşahidə olunur. Fransa, Belçika, Hollandiya kimi ölkələrdə təhsilin inkişafında eyni dəst-xətti görmək mümkündür.

Bir sıra ölkələrdə kapitalizmin təşəkkülünün təkcə tarixi müddətləri yox, inkişaf templərində fərqlənirdi. Klassik kapitalizm ölkələri (İngiltərə, Fransa, Belçika, Hollandiya) geniş ərazilər tutmaqla uzun müddət ərzində öz iqtisadi vəziyyətlərini möhkəmləndirir, nəhəng xammal mənbələri və ucuz fəhlə qüvvəsindən istifadə edir, satış bazarlarını öz inhisarlarına alırdılar. Onların iqtisadi vəziyyətlərinin xarici səbatlılığı istehsalın inkişafının yüksək templərini heç də dəstəkləmirdi. Belə qısa tarixi müddət ərzində onlar rəqiblərini ötüb-keçmək məcburiyyətində qaldılar. Tezliklə onlar iqtisadi inkişaf sürətinə görə irəli çıxdılar və dünyada gedən qarət prosesindən öz paylarını tələb etdilər. Belə ki, xammal mənbələri və satış bazarlarına yiyələnmək məqsədilə Almaniya birinci dünya müharibəsinə başladı. İkinci dünya müharibəsinədək sənayenin inkişaf səviyyəsinə görə geridə qalan Yaponiya və İtaliya sonradan yüksək sürətlə inkişaf edərək öz partnyorlarına çatdılar və hətta onları arxada qoydular. Bu ölkələrdə yüksək inkişaf etmiş sənaye istehsalı meydana çıxdı.

Müxtəlif ölkələrdə əmtəə münasibətlərinin qeyri-bərabər şəkildə təşəkkül tapması pedaqoji ideyaların inkişafına, məktəb siyasətinə və məktəb sistemlərinin qurulması prinsiplərinə müəyyən təsir göstərdi.

Maşınlarla istehsal işçilərdən yeni keyfiyyətlər tələb etdiyindən, hakimiyyətə yiyələnən qüvvələr fəhlələrə elementar biliklər vermək məcburiyyətində qalırdı. Kapitalist istehsalının meydana çıxması zəhmətkeşlərin övladları üçün təhsil almaq imkanlarının xeyli genişlənməsi ilə bağlı idi. Lakin ibtiadi məktəblər şəbəkəsi yaratmaqla yanaşı, hakim sinif təhsil sisteminin sinifli cəmiyyətin əsaslarının qorunub saxlanmasına xidmət etməsində maraqlı idi. Odur ki, istehsalın inkişaf etdirilməsi tələblərilə hakim sinfin təhsilin sinfi xarakterini qoruyub saxlamaq istəyi arasında müəyyən ziddiyətlər yarandı.

XIX əsrin ikinci yarısında yeni münasibətlər formalaşmağa başladığı bir dövrdə ən iri inkişaf etmiş ölkələrdə kilsə və şəxsi məktəblərlə yanaşı, dövlət məktəbləri şəbəkəsi də yaradıldı. XIX əsrin sonu-XX əsrin əvvələrində isə ümumi ibtidai təhsil hüquqi şəkildə bərqərar oldu. Bu proses fəhlələrin təhsil hüquqları və məktəb sisteminin demokratikləşdirilməsi uğrunda ardıcıl mübarizəsi ilə müşayiət olundu.

İcbari ibtidai təhsil hüquqi şəkildə Avstraliyada 1774-cü ildən (7-14 yaşlarında), Almaniyada (Prussiyada) 1754-cü ildən (6-12 yaşlarında), Fransada 1882-ci ildən (6-12 yaşlarında), Çexiyada 1774-cü ildən (6-12 yaşlarında), İsveçdə 1876-cı ildən (7-12 yaşlarında), İngiltərədə 1870-ci ildən (7-11 yaşlarında), İtaliyada 1877-ci ildən (6-10 yaşlarında), Yaponiyada 1872-ci ildən (6-14 yaşlarında) qəbul olundu. ABŞ-da məktəb qanunları ayrı-ayrı ştatlar üzrə (maarifin idarə olunmasının yerlərə həvalə edilməsinə müvafiq olaraq 1852-ci ildən, Massaçusets ştatı) başlayaraq XIX əsrin ikinci yarısında və XX əsrin

əvvəlində qəbul edilib. İcbari ibtidai təhsilin müddəti də müxtəlif idi: 6 yaşından 12, bəzi ştatlarda isə hətta 14 yaşadək.

İcbari ibtidai təhsil haqqında qanunların qəbulu daha çox deklarativ səciyyə daşıyırdı və heç də o demək deyildi ki, həqiqətən də məktəb yaşına çatmış uşaqların hamısı təhsil alır. Bir sıra ölkələrdə XIX əsrin axırlarına qədər hətta ibtidai məktəblərdə də təhsil pullu idi. XIX əsrin son onilliklərində və XX əsrin əvvəlində dövlət ibtidai məktəblər şəbəkəsinin məlum inkişafı şəxsi və kilsə məktəblərinin inhisarını, hakim siniflərin təhsil üzərindəki inhisarını heç də zəiflətmədi. Milli azlıqlar üçün milli məktəblərin olmaması, məktəblərin qeyri-bərabər paylaşması, ödənişli məktəblərin mövcudluğu, orta və ali təhsil müəssisələrində təhsilin pullu olması, icbari, xüsusən də kənd məktəblərində biliklərin aşagı səviyyəsi, zəhmətkeş uşaqları üçün məktəblərin tam komplektləşdirilməməsi və çıxılmaz vəziyyətdə olması bu uşaqlara təhsillərini orta və ali təhsil müəssisələrində davam etdirməyə imkan vermirdi. Varlı təbəqələrin uşaqları üçün isə ənənəvi təhsil müəssisələri mövcud idi. Bu tip müəssisələrdə həm orta təhsil verilir, həm də ali məktəbə hazırlıq işləri həyata keçirilirdi.

Bu dövrdə qeyd etdiyimiz müsbət təcrübədən faydalanan Asiya ölkələrində də mütərəqqi təhsil ənənələri yaranmağa başladı. Qitənin Qərbi Asiya, Cənubi Asiya, Cənub-Şərqi Asiya kimi regionlarında dini təhsilə üstünlük verilməsinə baxmayaraq, Avropa təhsili daha geniş şəkildə vüsət almağa başladı. Banqladeşdə, Bəhreyndə, Birləşmiş Ərəb Əmirliklərində, Birmada, Bruneydə, Vyetnamda, Qatarda, İndoneziyada, İordaniyada, İraqda, İranda, İsraildə, Yəməndə, Kiprdə, Küveytdə, Malayziyada, Pakistanda, Suriyada, Misirdə, Türkiyədə, Filippində və Hindistanda da bu hadisələrin mərhələlər üzrə inkişafı müşahidə olunurdu. Bunların içərisində ən böyük kontingentə malik olan Hindistan, Pakistan, İndoneziya və Türkiyə kimi ölkələrdə milli etniklərin çox olmasına baxmayaraq, təhsilin qərb standartlarına uyğun qurulması prosesi özünü bariz şəkildə göstərməyə başladı. Məsələn, əhalisi 230 milyonu ötmüş İndoneziyada hənəfi, şafii, hənbəli maliki, vəhhabi, sufi, əhmədiyyə, qadiriyyə, sələfiyyə, şəttariyə, batak, bak makas kimi təriqət qrupları dini təhsilə böyük üstünlük versələr də Avropa təhsilinin təsiri nəticəsində bu ölkədə dünyəvi təhsilə rəvac verən yüzlərlə nəhəng ali məktəblər yaranmağa başladı. Və yaxud Pakistanın Pəncab, Sind, Bəlucistan kimi əyalətlərində bədəvi, ivvadilər, vəhhabilər, şiələr, şafii, maliki, hənəfi, hənbəli kimi təriqətlərin geniş vüsət almağına baxmayaraq, Avropa təhsilinin təsiri altında dünyəvi təhsil sisteminin tələblərinə cavab verən böyük ali təhsil müəssisələri yaranmağa başladı.

Əhalisinin sayı 1,2 milyardı kecmiş Hindistanın Kəşmir, Uddar-Pradeş, Heydərabad, Maharaştra (Bombey), Qucarat (Surət), Rampur, Pəncab kimi əyalətlərində dini-etnik təriqətərin çox olmasına baxmayaraq, dini təhsili kölgədə qoyan Avropa təhsili sürətlə inkişaf edir. Hindistanda təhsilin ingilis dilində olması bu ölkənin Amerika və Böyük Britaniya təhsil sisteminə yaxınlaşmasına güclü təsir göstərmişdir. Hindistanın qonşuları olan Banqladeş və Şri-Lanka haqqında da eyni sözləri demək olar.

Qərb təhsil sisteminin əhatə dairəsi Afrika qitəsinə qədər genişlənmişdir. Belə ki, XX əsrdə inkişaf etmiş ölkələr sırasına daxil olan bəzi Afrika ölkələri Qərb təhsilinin mütərəqqi cəhətlərini tətbiq etməklə təhsil sahəsində böyük uğurlar qazanmışdır. Bu qitədə müsəlman əhalisinin əksəriyyəti, başqa sözlə desək, 82 faizi Şimali Afrikanın ərəb ölkələrində yaşayırlar. Cənubi Afrikanın isə ərəb mənşəli əhalisinin təxminən 90 faizdən çoxu müsəlmançılığı qəbul etməyən ərəblərdir. Göründüyü kimi, Afrikanın bir hissəsində xristian ərəblər, digər hissəsində müsəlman ərəblərinin yaşamasına baxmayaraq, hər iki ölkədə Qərb təhsilinə maraq eynidir. Ümumiyyətlə desək, Afrikanın istər Şimalında, istər Cənubunda, istərsə də Qərb və Şərqində yerləşən ölkələrin böyük əksəriyyətində Qərb təhsilinə maraq bu gün də artmaqdadır. Əlcəzair, Kamerun, Liviya, Mərakeş, Misir, Nigeriya, Sudan, Tunis, Efiopiya, Qvineya, Mavritaniya, Seneqal, Somali və başqa ölkələrdə bu gün Qərb təhsilinə

maraq göstərən rəngarəng ixtisasları, zəngin təhsil texnologiyasını özündə təcəssüm etdirən nümunəvi ali məktəblər mövcuddur.

Son illərdə Cənubi Afrika dövlətlərində texniki elmlərlə yanaşı, mədəniyyəti, incəsənəti, arxitektura və xüsusilə idmanı özündə əks etdirən ixtisaslar əsasında formalaşmış ali təhsil müəssisələri mövcuddur. Cənubi Afrikanın inkişaf etmiş dövlətlərində həm ABŞ, həm də Qərb dövlətləri ilə güclü rəqabətə girməyi bacaran, hətta bəzi hallarda onlara qalib gələn tədris müəssisələri fəaliyyət göstərir. Məhz ona görə də CAR-ın yetişdirmələri beynəlxalq aləmdə böyük nüfuz qazanmağa başlamışlar.

**ƏDƏBİYYAT**

Aliyev, Y., & Jafarov, S. (2022). Formation of learner’s research competence based on using multimedia technologies. The XXIII International Scientific Symposium “Integration of cultures and multiculturalism”, Kars, Turkey. https://doi.org/10.5281/zenodo.6332195

Azərbaycan Milli Ensiklopediyası (2007). Baku.

Azərbaycan Sovet Ensiklopediyası (1976-1987). I-X cild. Bakı.

Dewey, John (1916). Democracy and Education, 434 p., https://www.gutenberg.org/files/852/852-h/852-h.htm

Əhmədov, Hüseyn (1985). XIX əsr Azərbaycan məktəbi. “Maarif”, Bakı.

Imrani, Z. & Jafarov, S. (2023). Economic-Geographical Model of Sustainable Development in Manufacturing and Education. International Journal of Innovation and Economic Development, 9(1): 47-54.

Jafarov, S. & Aliyev, Y. (2022). Education Policy and Leadership. International Journal of Innovation and Economic Development, 7(6): 14-23.

Jafarov, Sarkhan & Zaur Imrani. (2021, July 26). Comparison of The Azerbaijani Education System With the US Education System (XX-XXI Centuries (1960-2015)). "World Science: problems and innovations" The XVI International Scientific Symposium, East Lansing (Michigan, USA). https://doi.org/10.5281/zenodo.5895028

Mahmudov, M. (2010). Bolonya prosesi: problemlяr, perspektivlяr, reallıqlar. Bakı: Elm və təhsil, www.bologna.mgimo.ru.

Mahmudov, Müdafiə (2009). Azərbaycanın Bolonya prosesinə daxil olmasının reallığa çevrilməsi. Bakı, 247 səh.

Mərdanov, Misir (2006). Azərbaycan təhsili dünən, bugün, sabah. Bakı: Təhsil.

Mərdanov, Misir (2009). Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Çaşıoğlu.

Statement of G8 Summit on “Education for Innovative Societies in the 21st Century”, St. Petersburg, July 16, 2006, online version http://www.mofa.go.jp/policy/economy/summit/ 2006/education.html

Zakir, E., Imrani, Z. & Jafarov, S. (2022). The Current State of Foreign Trade Relations of the Republic of Azerbaijan. Proceedings E-Book, 52.

Касевич, В.Б., Светлов Р.В., Петров А.В. (2004). Цыб А.А. Болонский процесс в вопросах и ответах- СПБ.: Издательство СПБГУ.

Кобзев, А.В. (2004). «Оксфордская» модель развития учебно-научноинновационного комплекса университета / А.В.Кобзев, А.Ф.Уваров // Инж. Образование. № 2.

Коробов, А.И. (2005). Наука и образование в университете Кембриджа / А.И. Коробов, Ю.В.Холин // Университеты. №1: 4-13.

Лукичёв, Г.А. Решение вопросов признания высшего образования в Европейском пространстве высшего образования. www.russianenic.ru/publications/12html